## Könüllü vergi xəbərçiləri mükafatlandırılır

Böyük Britaniya vətəndaşları həvəslə vergi xidmətinin könüllü köməkçisi rolunda çıxış edirlər və vergi orqanları öz köməkçilərini fəal şəkildə mükafatlandırır. Exaro adlı qeyri-hökumət araşdırma təşkilatının nəşr etdirdiyi hesabatda bildirilir ki, Böyük Britaniyanın vergi və gömrük xidməti vergi qanununu pozanlar və vergi cinayətinə yol verənlər ilə bağlı könüllü şəkildə xəbər çatdıranlara son dörd ildə 1 milyon funt sterlinqdən artıq mükafat ödəyib.

Yalnız keçən il Böyük Britaniyanın vergi orqanlarına vətəndaşlardan 70 min məlumat daxil olmuşdur və əsaslı xəbərlərin qarşılığı olaraq hökumət tərəfindən 374 min funt sterlinq məbləğində mükafat ödənilmişdir. Mükafatların məbləği 50 funt-sterlinqdən başlayır və vergi orqanı hər bir konkret fakt üzrə konkret rəqəm müəyyənləşdirir. İndiyədək 100 min funt sterlinq məbləğində ən böyük mükafat isə Lixtenşteyndən olan bank işçisinə verilib: o, vergi orqanlarına öz ölkəsində vergidən yayınan Britaniya vətəndaşı haqqında məlumat çatdırmışdı. Böyük Britaniyanın vergi orqanının verdiyi rəsmi məlumata görə, 2005-ci ildən 2009-cu ilədək vətəndaşların köməyi ilə üstü açılmış vergidən yayınmaların məbləği 42 milyon funt sterlinq olmuşdur...